UOT 372.894

***Xəqani Fikrət oğlu Bəylərli***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# ALİ MƏKTƏBLƏRDƏ VƏTƏN TARİXİNİN TƏDRİSİNDƏ AZƏRBAYCANÇILIQ İDEOLOGİYASININ FORMALAŞDIRILMASININ MAHİYYƏTİ

***Хагани Фикрет оглы Бейлерли***
*Азербайджанский Государственный Университет*

# СУЩНОСТЬ ФОРМИРОВАНИЯ ИДЕОЛОГИИ АЗЕРБАЙДЖАНСТВА В ПРЕПОДАВАНИИ ИСТОРИИ ОТЕЧЕСТВА В ВЫСШИХ ШКОЛАХ

***Khagani Fikret Baylarli***
*Azerbaijan State University*

# AZERBAIJANISM IN THE TEACHING OF NATIONAL HISTORY AT UNIVERSITIES THE ESSENCE OF THE FORMATION OF IDEOLOGY

**Xülasə.** Məqalədə respublikamızın təhsil sistemində aparılan islahatlar şəxsiyyətyönlülük prinsipinə uyğun olaraq təhsilin məzmununun innovativ dəyişikliklərlə tənzimlənməsinin əsas tələblərindən biri kimi təqdim edilmişdir. Azərbaycançılıq ideologiyasının mahiyyətinə aydınlıq gətirilir. Bu ideologiyanın təlim-tərbiyəvi əhəmiyyəti şərh edilir. Gənc nəsildə milli ruhun yüksəldilməsi məqsədi ilə onlarda tariximizə, maddi və mənəvi dəyərlərimizə yiyələnmələrinin əhəmiyyəti və yolları müəyyənləşdirilmişdir. Məqalədə yetişməkdə olan gəncləri vətəninə, xalqına, adət-ənənələrinə məhəbbət ruhunda formalaşdırmaqla nümunəvi vətəndaş tərbiyə etməyin yolları göstərilmişdir. Son məqsəd milli ruhlu azərbaycanlıların formalaşdırılmasıdır. Milli ruhun, vətənçiliyin bariz nümunəsi İkinci Qarabağ müharibəsi göstərdi.

***Açar sözlər:*** *ali məktəb, vətən tarixi, tədris, azərbaycançılıq, ideologiya, mahiyyət, formalaşdırmaq.*

**Резюме.** В статье представлены реформы в системе образования республики как одно из основных требований к регулированию содержания образования инновационными изменениями в соответствии с принципом личностной направленности. Вносится ясность в суть идеологии азербайджанства. Поясняется воспитательное значение этой идеологии. Для поднятия национального духа в подрастающем поколении были определены важность и пути освоения нашей истории, материальных и духовных ценностей. В статье показаны пути воспитания образцовых граждан через формирование молодежи в духе любви к своей Родине, народу и традициям. Конечная цель – формирование национального духа азербайджанцев. Вторая карабахская война стала ярким примером национального духа и патриотизма.

***Ключевые слова:*** *высшая школа, история отечества, преподавание, азербайджанство, идеология, сущность, формировать.*

**Summary.** The article presents the reforms in the education system of our republic as one of the main requirements for the regulation of the content of education with innovative changes in accordance with the principle of personality orientation. The essence of the Azerbaijani ideology is clarified. The educational significance of this ideology is explained. In order to raise the national spirit in the younger generation, the importance and ways of mastering our history, material and spiritual values have been identified. The article shows the ways to educate exemplary citizens by forming young people in the spirit of love for their homeland, people and traditions. The ultimate goal is to form Azerbaijanis with a national spirit. The Second Karabakh War was a clear example of national spirit and patriotism.

***Keywords:*** *university, history of the homeland, education, Azerbaijanism, ideology, essence, formation.*

Azərbaycan coğrafi mövqeyinə, təbii ehtiyatlarına və əhalisinin etnik tərkibinin rəngarəngliyinə görə dünya dövlətləri sırasında unikal bir yerdə qərarlaşıb. Çoxsaylı xalqların toplum şəkildə Azərbaycan ərazisində yaşaması dövlətin təməl prinsiplərini təşkil edən milli ideologiyanın durğun seçilməsini tələb edir. Aydın məsələdir ki, müstəqil dövlətimizin təməl prinsipləri içərisində demokratikləşmə, islamçılıq və azərbaycançılıq durur.

İlk növbədə ideologiya anlayışına aydınlıq gətirək. “İdeologiya – siyasi, hüquqi, əxlaqi, estetik, dini, fəlsəfi baxışlar və ideyalar sistemidir. İdeologiya üstqurumun bir hissəsi(Bazis və üstqurum) olmaqla nəticə etibarilə iqtisadi münasibətləri əks etdirir... ideologiyanın inkişafının daxili varislik əlaqəsi, bu və ya digər ideoloqların şəxsi rolu, ideologiyanın müxtəlif formalarının bir-birinə qarşılıqlı təsiri və s. əlavə təsir göstərir”(3, s. 170).

Aydın məsələdir ki, dünyagörüşü intellektual və mədəni-mənəvi mühit isə məhz ictimai-siyasi və fəlsəfi fikrin, ədəbi-bədii gerçəkliyin təsiri ilə yaranır, formalaşır. Fəlsəfi fikir rəsmi ideologiyaya çevrilmədən də vətəndaşların dünyagörüşünün formalaşmasına təsir göstərməklə dolayı yolla həmin funksiyanı yerinə yetirir. Lakin bir şərtlə ki, xalq arasında yayılmış, təhsil müəssisələrində tədris edilən, mətbuatda təbliğ olunan üstün fəlsəfi fikir istiqamətləri olsun və onlar milli zəmində, zamanın hökmü ilə, yerli ictimai mühitin təkindən doğmuş olsunlar.

Azərbaycançılıq ideologiyası çoxşaxəli bir anlayış olmaqla azərbaycanlıları birləşdirən bir qüvvəyə malikdir. Bu anlayışı professor Yaşar Qarayev çox aydın ifadə edərək yazırdı: “Milli ideya dövlətçilik hüdudunda milli məfkurəyə o zaman çevrilir ki, bu ideyaya sahiblikdə, üstəlik, dövlət ərləri və öndərləri ilə ziyalı elita və bütöv əhali arasında monolit həmrəylik hökmfərman olur. Əzəli və əbədi Azərbaycanı yumruqda birləşdirən mənəvi cazibə məkanı da indi yalnız bu bütövlüyün məhvərində yarana bilər”(6, s. 101).

Azərbaycançılıq ideologiyası xalqla hakimiyyəti birləşdirmək gücünə malikdir. Bu gücdən səmərəli istifadə etmək üçün azərbaycançılıq ideologiyası demokratik dövlət təsisatları ilə üzvi surətdə əlaqələndirilməlidir.

Azərbaycançılıq ideologiyası Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra dövlət səviyyəsində müzakirə edilərək milli ideologiyamızın tərkibinə daxil edilmişdir. Məhz bundan sonra azərbaycançılıq ideologiyasının Azərbaycan dövlətçiliyinin hazırki dövründə xüsusi əhəmiyyət kəsb etdiyi əsaslandırılmışdır.

Azərbaycançılıq ideologiyası son dövrlərdə tarixçilər, filoloqlar, filosoflar, siyasətçilər tərəfindən müxtəlif aspektlərdə tədqiq edilərək cəmiyyət üzvlərinə çatdırılıb. Onu da qeyd etməyi lazım bilirik ki, azərbaycançılıq ideologiyası Azərbaycanda kapitalist ictimai münasibətləri yarandığı dövrlərdə xüsusi inkişaf mərhələsinə çatmışdır. Azərbaycançılıq dövlətçiliklə paralel inkişaf edir. Azərbaycan ikinci dəfə müstəqillik əldə etdikdən sonra N. Cəfərov, Z. Məmmədov, S. Vəliyeva, S. Xəlilov, M. Yusifov, N. Şəmsizadə, Y. Qarayev və başqaları azərbaycançılığın elmi-nəzəri əhəmiyyətini yetərincə tədqiq edərək sanballı əsərlər yazmışlar. Bütün əvvəlki səhifələrdə yazdıqlarımdan aydın olur ki, azərbaycançılıq ideologiyasına aid çoxsaylı materiallar mövcuddur. Həmin materiallardan pedaqoji təmayüllü ali məktəb tələbələrinə hansı məzmunlu materiallar tədris edilməlidir? Fikrimizcə həmin tələbələrə milli ideologiyamızın əsas komponentlərini özündə ehtiva edən aşağıdakı məzmunda materiallar mənimsədilməlidir.

Birincisi, dövlətçilik Azərbaycan müstəqilliyini, ərazi bütövlüyünü qoruyub saxlamaqdır. Azərbaycanın müstəqilliyini və möhkəmliyini qoruyub saxlamadır. Dövlətçilik hər bir vətəndaşın qəlbində olmalıdır. Ona görə də hər bir vətəndaş vətənpərvərlik hissləri ilə yaşamalıdır. İkincisi, milli-mənəvi dəyərlərimizdir. Buraya dil, din, adət və ənənələrimiz daxildir. Üçüncüsü, Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş azərbaycançılıqdır. Əslində azərbaycançılıq milli ruha qida verən bir anlayışdır. Milli ruhu qorumağın, inkişaf etdirməyin və yeni nəsillərə çatdırmağın ən yaxşı forması milli dövlətçilikdir. Milli dövlət ancaq ərazinin, maddi sərvətlərin deyil, həm də milli-mənəvi dəyərlərin qorunmasına xidmət edir.

Milli-mənəvi dəyərlərimizdən biri də Azərbaycan dilidir. Azərbaycan dili böyük dildir. Onun qoynunda bütün peşəkar fəaliyyət sa-

hələri sərbəst inkişaf edir. Ədəbi dilimizin böyük daxili potensialı və zəngin söz ehtiyatı, habelə tarixin ayrı-ayrı dövrlərindəki dövlətçilik ənənələrinin bu gün bizim heç bir başqa dilə müraciət etmədən bütün fəaliyyət sahələrini əhatə edən mükəmməl milli dil səviyyəsinə qalxmağımıza imkan verir.

Aydın məsələdir ki, millilik insanların öz aralarındakı münasibətlərdə üzə çıxır. Bu da ən çox əxlaq sferasını əhatə edir. Buraya adətlər, ənənələr, bayramlar və digər mərasimlər, ədəbiyyat, din, incəsənət və s. daxildir. Beləliklə, millilik tarixən eyni təbii mühitdə, eyni ictimai-iqtisadi şəraitdə formalaşmış olan insanların öz aralarındakı münasibətlərin ənənəviləşmiş məqamlarını əhatə edir. İnsanlar arasında ünsiyyətin ardıcıl və müntəzəm xarakter daşıması vahid ünsiyyət vasitələrindən istifadə olunmasını tələb edir. Burada ünsiyyət deyəndə yalnız dil deyil, insanlar arasında əlaqənin bütün formalarını nəzərdə tuturuq. Beləliklə, əsrlər boyu davam edən ənənəviləşən, qərarlaşan ünsiyyət formaları tədricən cəmiyyətdə stabil sosial normalar, əxlaqi və estetik meyarlar sistemi yaradır və düşüncə tərzinin özünə də təsir edir. Əvvəlki nəsillərin həyat tərzi və qiymətləndirmə meyarları bilavasitə ötürməklə yanaşı, bədii ədəbiyyat və incəsənət vasitəsi ilə də yeni nəslə çatdırılır. Nəticədə milli varislik müxtəlif kanallar və vasitələrlə təmin edilir.

O ki, qaldı dinin milli-mənəvi dəyərlərlə əlaqəsinə deyə bilərik ki, din insanlarla Allah arasındakı münasibətləri tənzim etdiyi üçün milliliyin fövqündə dayanır. Məlum olduğu kimi dini duyğular insanın təbiətə münasibətinin davamı kimi ortaya çıxıb. Dində insan özü ilə təbiət, özü ilə dünya arasında vəhdət axtarır.

Apardığımız araşdırmalardan aydın olur ki, ali pedaqoji təmayüllü təhsil müəssisələrində Azərbaycan Respublikası Konstitusiyasının əsasları, fəlsəfə və Azərbaycan tarixi fənlərinin tədrisində tələbələrdə azərbaycançılıq ideologiyasının formalaşdırılması imkanları var. Təqdim etdiyimiz məqalədə Azərbaycan tarixinin məzmununda azərbaycançılıq ideologiyasının formalaşdırılması üçün daha geniş imkanların olduğu üçün məhz vətən tarixinin tədrisindən istifadə etməyi məqsədəuyğun hesab edirik.

Ali məktəblər üçün Azərbaycan tarixi dərsliklərində olan "Azərbaycan XIX əsrin II yarısında" fəslindən sonrakı bütün mövzuların tədrisində tələbələrdə azərbaycançılıq ideologiyasının formalaşdırılması üçün geniş imkanlar var.

Azərbaycançılıq tərbiyəsi isə özündə aşağıdakı amilləri birləşdirməlidir:

– Gənclərin intellekt və emosional səviyyəsinin inkişaf etdirilməsi;

– Təvazökarlıq və dözümlülüyün tərbiyə edilməsi;

– Özünəinam hisslərinin tərbiyə edilməsi;

– Dünyaya müsbət münasibət bildirmək və başqalarının nailiyyətlərini etiraf etmək;

– Muxtariyyətlik və müstəqilliyin əsas atributlarını dərindən mənimsəmək;

– Özünütəkmilləşdirmə və özünükamilləşdirmə, özünüfəallaşdırma və s. (2, s, 26).

Yetişən hər bir tələbə vətənimiz Azərbaycanın gələcəyidir. Ali məktəblərdə azərbaycançılıq ideologiyasının dövlətimizin milli dəyəri olaraq aşılanması və xüsusiyyətlərinin göstərilməsi çox mühüm əhəmiyyət kəsb edir. Gələcək nəsillərin sağlam milli düşüncədə yetişdirilməsi dövlətimizin daxilində və gələcək siyasətində güclənməsinə, həmçinin də planetin müxtəlif yerlərində yaşayan azərbaycanlıların bir ideologiya ətrafında birləşdirməyə təkan verəcəkdir. Hər bir dövlətin möhkəmlənməsi, dayanıqlı əsaslar yaratması və oturuşması üçün milli ideologiyası olmalıdır. Azərbaycançılıq ideologiyası da əsas etibarı ilə bu xüsusiyyətlərə malikdir. Əsas olaraq bu ideologiya özündə birləşdirici xüsusiyyəti daşıdığı üçün, kənardan toplumumuza olan mənfi təsirlərin qarşısını alır və davamlı inkişafı təmin edir. İstər ali təhsil ocaqlarında, istərsə də ümumtəhsil ocaqlarında, ümumiyyətlə məkanından asılı olmayaraq ümumi şəkildə də olsa azərbaycançılıq haqqında söhbətlər edilməli və maarifləndirmə işləri aparılmalıdır. Azərbaycançılıq deyəndə, onun bir üzündə milli ruh, vətənpərvərlik, milli birlik, digər üzündə isə milli şüur və əqidə bütövlüyü dayanır. Bu saydıqlarımız azərbaycançılığın əsas ünsürlərindən sayılır. Cəmiyyət psixologiyasından başı çıxan, cəmiyyətlə işləyən adamlar az-çox bilirlər ki, cəmiyyətdə ideya tam, konkret olmayanda müxtəlif problemlərə gətirib çıxarır. Bunun üçündə ideyanın anlaşıqlı və aydın olması çox vacibdir. Bütün nüanslar diqqətə alınmaqla, azərbaycançılıq mükəmməl formada

təbliğ olunmalı. Həmçinin, sözügedən ideya müəyyən qədər cilalanmalı və təkmilləşməlidir. Toplumu inkişaf etdirən, birləşdirən və onun inkişafına zəmanət verən ideya sistemi insanların fikirlərində əqidəyə çevrilməlidir.

Azərbaycançılıq ideologiyasının ilk ünsürlərinə Şah İsmayıl Səfəvinin islahatlarından sonra, XVI əsrin əvvəllərində rast gəlinir. XVII-XVIII əsrlərdə isə, həmin fikir parlaq dövrünə keçir. Ancaq, Nadir şahın sui-qəsdə uğramasından sonra ölkədə parçalanma və dağınıqlıq bu prosesi ləngidir.

Vətənimiz təəssüflər olsun ki, 1828-ci ildə öz müstəqil inkişaf etmə xüsusiyyətini itirdi. Rusiya və Qacarlar arasında ikiyə bölünən millət fərqli mədəni və siyasi inkişaf yoluna qədəm qoydu. XIX əsrin birinci yarısında şimal və cənubdakı bədxah qonşularımız tərəfindən tarixi ərazilərimiz işğal edilir və parçalanır. Lakin xalqımız öz milli ruhunu, mənəvi-mədəni birlik hisslərini daha da gücləndirmişdir. Ancaq bu işğallara və sıxışdırmalara baxmayaraq azərbaycançılıq məhz XIX əsrin sonlarında daha çox təşəkkül tapdı və inkişaf etməyə başladı. Ancaq azərbaycançılıq ideologiyası daha əski zamanlara dayanır. XIX əsrin sonlarından etibarən Azərbaycan ziyalıları millətin inkişafı üçün daha çox çalışmağa başlamışdı. Ziya Göyalpın Şərq xalqlarının milli hərəkatının inkişaf mərhələlərinə dair fikrinə uyğun olaraq, azərbaycançılıq özünü ilkin olaraq XIX əsrin ikinci yarısında meydana gəlmiş mədəni hərəkat kimi göstərdi. O vaxtdan başlayaraq Azərbaycan ədəbiyyatının, incəsənətinin və maarifçilik hərəkatının görkəmli xadimləri azərbaycançılıq hərəkatına rəhbərlik edirdilər. Bu dövrdə Mirzə Fətəli Axundzadə, Abbasqulu ağa Bakıxanov, Həsən bəy Zərdabi, Nəcəf bəy Vəzirov, Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyov, Mirzə Ələkbər Sabir və s. kimi onlarla ziyalımız Azərbaycanın gələcəyi, millətin inkişaf etmiş Qərb mədəniyyətinə inteqrasiyasını, cəhalətdən qurtulmasını fikirləşirdi. Azərbaycançılıq ideyası məhz bu dövrdə inkişaf etməyə başlamışdır. Adını sadaladığımız və sadalamadığımız onlarla ziyalımız milləti azərbaycançılıq ideyası ətrafında birləşdirməyə və əsarətdən qurtarmağa çalışırdı.

XX əsrdə isə azərbaycançılıq ideyası daha sürətlə yayıldı və dövlət ideologiyası halına döndü. 1918-ci ildə qurulan Şərqin, Müsəlman aləminin və Türk dünyasının ilk demokratik cümhuriyyəti olan Azərbaycan Xalq Cümhuriyyəti zamanından azərbaycançılıq ideologiyası ilk dəfə olaraq dövlət səviyyəsinə qaldırıldı. Bu o zaman üçün millətimiz və dövlətimiz üçün çox böyük addım idi. Azərbaycançılıq ideyası ilk dəfə dövlət siyasəti səviyyəsində Azərbaycan milli siyasətinin əsasını təşkil etdi. Xalq Cümhuriyyəti liderlərinin, hökumət rəhbərlərinin və ideoloqlarının millət və milli məsələ, milli siyasət, millət və sinif, millətçilik və beynəlmiləlçilik və s. haqqında olan nəzəri müddəaları əsasən azərbaycançılıq (türkçülük) üzərində qurulmuşdu və milli dövlət quruculuğuna yönəlmişdi. Azərbaycan Xalq Cümhuriyyətində Məhəmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski və s. kimi siyasət adamları bu ideyalara dayanaraq siyasət həyata keçirirdi.

Beləliklə, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ictimai şüurun hər sahəsində - elmdə, təhsildə, ədəbiyyatda, teatr, musiqi sahələrində milli ruhun güclənməsinə səbəb olmuşdur. “Ədəbi həyatımızın Məhəmməd Hadi, Cəfər Cabbarlı, Əhməd Cavad, Əli Yusif, Almas İldırım, Əbdülvahab Yurdsevər, qardaş türk ədəbiyyatının nümayəndələri Rövşən Əşrəf, İbrahim Şakir, Arif Üryan və başqaları öz əsərləri ilə məhz azərbaycançılığın, milli şüurun formalaşması işində fəal iştirak edirdilər” (6, s.73).

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra da azərbaycançılıq ideyası insanların, xüsusilə də mütəfəkkirlərin fikrindən silinmədi. Millətimizin tarixinin bütün sahələrində olduğu kimi, XX əsrin 30-cu illərindən azərbaycançılığın əsas atributlarından olan Azərbaycan-türk dilinə yəni Ana dilimizə rejim tərəfindən ciddi qadağalar qoyulur, məsələ o yerə çatır ki, 1937-ci ildə Ana dilimizin-millətimizin tarixi milli adı olan Türk dilinin adı dəyişdirilərək, Azərbaycan dili adlandırılır. Millətimizin “türk adı” dəyişdirilərək “azərbaycanlı” edilir. Hətta qədim tarixə və mədəni irsə sahib olan millətimizin türk mənşəli deyil, guya İran mənşəli olduğunu sübut etməyə çalışırdılar. Guya orta əsrlərdə köçəri həyat sürən türklərin dilini qəbul etdiklərini deyərək millətimizin tarixi keçmişini saxtalaşdırmağa və öz aləmlərində sübut etməyə cəhdlər edirlər. Bunun da səbəbi hər iki qonşunun tarix boyu bizə düşmən mövqeyində olma-

sıdır. Digər yandan 500 min kv.km. olan tarixi ərazilərimizi də bu iki dövlət parçalamışdır. Məhz işğal etdikləri ərazilər əllərindən çıxmasın deyə hər iki dövlət də bizə qarşı eyni mənfur siyasəti yeridir və bir-birini dəstəkləyirdi. Onlar ilk növbədə millətin əsas özəyi olan ziyalılarımızı aradan götürürdülər, qısaca desək onların ideoloqları Azərbaycana qarşı anti-demokratik, anti-bəşəri siyasət yürüdürdülər.

1969-cu ildə Heydər Əliyevin respublikaya rəhbər təyin edilməsindən sonra Azərbaycan xalqının, ictimai fikrinin mövcudiyyətinin, bütövlükdə cəmiyyət həyatının ideya-konseptual prinsiplərindən yenidən yavaş-yavaş milli-mənəvi dəyərlərin dirçəlişi başlanmışdır. Bu gün qətiyyətlə demək olar ki, Heydər Əliyevin Azərbaycana uzunmüddətli rəhbərliyinin ən sanballı göstəricilərindən biri respublikada azərbaycançılıq məfkurəsinin və milli ruhun yüksəlişi, milli özünüdərkin keçmişin buxovlarından azad olması, tarixi yaddaşımızın qaytarılması, milli hisslərin və milli dövlətçiliyin bərpası və güclənməsi hesab edilə bilər.

Əbülfəz Elçibəyin hakimiyyəti dövründə azda olsa sakitlik yaranmışdısa, bir müddət sonra dövlət içində radikal qüvvələr tərəfindən yenidən qarışıqlıq yaranmışdı. Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə gəldikdən sonra dövlət siyasətini düzənə salmış, azərbaycançılıq ideyasını isə mütləq etmişdir. Heydər Əliyev tərəfindən görülən işlər dünyada yaşayan azərbaycanlıların milli şüurunun, milli özünüdərkin güclənməsinə, onların öz dilimizə, mədəniyyətimizə, milli dəyərlərimizə, dövlətçiliyimizə daha da doğmalaşmasına öz müsbət təsirini göstərmişdir. Müasir dövrdə Heydər Əliyevin uğurlu siyasət xətti prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir.

Azərbaycançılıq ideologiyası bu gün dövlətimizin əsas sütunlarından biridir. Bu gün azərbaycançılıq ideologiyası zamanın yüksək səviyyəsinə keçmişdir. Bu da bir sıra cəhətlərlə əlaqədardır. Bu ideologiya artıq müasir elmin nailiyyətlərinə əsaslanaraq, özünün elmi və nəzəri əsaslarını təklif edir, nəzəriyyə və təcrübənin vəhdətini də təcəssüm etdirir. Bu mənada Yaşar Qarayevin, Səlahəddin Xəlilovun, Nizami Cəfərovun, Yaqub Mahmudovun, Anarın, Azad Nəbiyevin, Nizaməddin Şəmsizadənin, onlarla filoloq, filosof, psixoloq, sosioloq və politoloqun azərbaycançılığa aid tədqiqat işləri təqdirəlayiqdir (6, s.1 01-102).

Görkəmli şəxslərin Azərbaycan dövlətçiliyi, azərbaycançılıq məfkurəsi haqqında dəyərli fikir və müddəalarından mühazirə və seminar məşğələlərində istifadəsini məqsədəuyğun hesab edirəm:

**Mehriban Əliyeva-YUNESKO-nun xoşməramlı səfiri, Azərbaycan Respublikasının birinci vitse prezidenti:** Bizim ən böyük sərvətimiz bizim mədəni irsimizdir. Bizim ədəbiyyatımız, poeziyamız, musiqimiz, təkrarsız, nadir xalçaçılıq məktəbimiz, təsviri sənətimiz, memarlıq abidələrimizdir. Bu mədəni irs bizi millət kimi qoruyub saxlayır. Bu gün bu mədəniyyəti qorumaq, saxlamaq, təbliğ etmək hər birimizin mənəvi borcudur.

**Yusif Vəzir Çəmənzəminli-yazıçı:** Azərbaycan çox davalar və çox millətlər görüb və hələ də həyatımıza bir təsir buraxmamış olmayıb. Hal-hazırda biz tarixi pillələrdən keçib, min qovğa görəndən sonra uyuşub sabit bir şəkil almışıq, böyük türk millətinin bir şöbəsini təşkil eləyirik, millətə məxsus bir çox amillərə dəxi malikik: ayrıca dilimiz, adət və qaidəmiz və ədəbiyyatımız var. Əsrlərlə rəyasətpərvər hakim dairələr tapdağı olan xalqımız həmişə mədəni həyatında davam edib, milli simasını heç vaxt itirməyib.

Fikirlərimi konkretləşdirərək deyə bilərəm ki, azərbaycançılıq ideyasının ali məktəblərdə geniş tədrisi milli təfəkkür üçün çox əhəmiyyətlidir. Günümüzdə ölkəmiz təkcə birbaşa düşmənimiz olan Ermənistan ilə deyil həm bizə gizlindən düşmənçilik edən dövlətlərlə həm "din" və "azadlıqlar" adı altında beyinləri qarışdıran dövlətlərlə həm də sosial media ilə savaşır. Bu savaşda dövlətimizə dəstək olmaq və dünyaya tanıtmaq üçün hamımız bir ideya-azərbaycançılıq ətrafında birləşməliyik. Günümüzdə bəzi Avropa dövlətləri kimi bir sıra demokratik dövlətlər sözdə milliyyətçilik etmədiklərini desələr də siyasətdə onu görmürük. Bəzi dövlətlər hər zaman olduğu kimi indidə ölkələrdə insanların xüsusilə də gənclərin fikirlərini qarışdıraraq həmin ərazidə söz sahibi olmaq istəyirlər. Azərbaycan kimi önəmli bir regionda yerləşən və təbii sərvətləri bol olan bir ölkə hər zaman iştahları qabartmışdır. Ancaq vətənimizin əsas sərvəti, gələcəyi yeni təhsilli tələbələr və gənclikdir. Hər bir döv-

lətin öz siyasi xəttini həyata keçirən ideologiyası olur. Bizim ideologiya azərbaycançılıqdır. Vətən tarixinin tədrisi zamanı azərbaycançılıq ideologiyasına geniş yer verilməli və tələbələrə bu siyasətin önəmi başa salınmalıdır. Çünki, bizim bir vətənimiz bir güman yerimiz var, Azərbaycan.

**Problemin aktuallığı:** Araşdırmalardan aydın oldu ki, dövlətimizin təməl prinsiplərindən biri olan azərbaycançılıq ideologiyasının əhəmiyyəti, mahiyyəti, məzmunu haqqında geniş ədəbiyyat olduğu halda, bu ideologiyanın tədris müəssisələrində təbliği və təliminə aid metodik ədəbiyyat yoxdur. Həmin boşluğun doldurulmasıdır.

**Problemin elmi yeniliyi:** Təhsil müəssisələrində pedaqoji üstünlükdən istifadə edərək tələbələrə azərbaycançılıq ideologiyasının anlaşılmasında üstünlük yaradır. Bu üsulla tələbələr fikri fəaliyyətlərində uğur qazanır. Onlarda dövlətimizə, vətənimizə və xalqımıza məhəbbət hissi formalaşır.

**Problemin praktik əhəmiyyəti:** Bu məqalədə qeyd edilən fikirlər yalnız ali pedaqoji təhsil müəssisələrində deyil eyni zamanda digər ali təhsil müəssisələrində tədqiqat sahələrində uğurlu nəticələr qazanılmasında yardımçı ola bilər. Alınan nəticədən ali məktəb müəllimləri gündəlik pedaqoji fəaliyyətlərində istifadə edə bilərlər.

**Nəticə:** Məqalədə qeyd edilən fikirlər tələbələrin bu barədə qarşısına çıxacaq problemlərin aşılanmasında yardımçı ola bilər, təhsil müəssisələrində yetişən tələbələrin dövrün tələblərinə uyğun fəaliyyətlərini nizamlayır.

**Ədəbiyyat**


1. Azərbaycan tarixi. Yeddi cilddə. VII cild. -Bakı: ELM, -2008.
2. Cəfərov, N., Çobanov, M., Paşayeva, Q. Azərbaycanşünaslığın əsasları / N. Cəfərov, M. Çobanov, Q. Paşayeva. -Bakı, AzAtaM, -2013.
3. Fəlsəfə ensiklopedik lüğəti. Müəllif kollektivi. “Azərbaycan Enisklopediyası”. Nəşriyyat – Poliqrafiya Birliyi. –Bakı: -1997. -s.170.
4. Hüseynov, H. Azərbaycan XIX əsr ictimai və fəlsəfi fikir tarixindən / H. Hüseynli. -Bakı: “Şərq-Qərb”, -2007.
5. Məmmədov, Z. Azərbaycan fəlsəfi tarixi / Z. Məmmədov. Azərbaycan fəlsəfi tarixi. –Bakı: Şərq-Qərb, -2006.
6. Vəliyeva, S. Azərbaycançılıq milli ideologiya və ədəbi-estetik təlim kimi. Məsələnin qoyuluşuna dair / S. Vəoyeva. -Bakı, 2002. -s.73.


**E-mail:** xeqanibeylerli9@gmail.com

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **M.M. Əmirov,**
*t.ü.elm.dok., dos.* **S.M. Seyidova**

**Redaksiyaya daxil olub:** 10.06.2021